Almaniya Federativ Respublikasının
Səfirliyi
Bakı

Aktuallaşdırılmışdır: fevral 2026

# İxtisas dili və ixtisas bilikləri üzrə imtahanlar - məlumat vərəqəsi

Xahiş olunur əvvəlcə milli viza üçün müraciət etməyə dair **ümumi məlumatları** oxuyun.

Əgər siz Almaniyada işləmək üçün (xüsusilə səhiyyə sahəsində) tələb olunan dil biliklərini ixtisas dili imtahanı (Fachsprachprüfung) ilə təsdiq etməlisinizsə və ya xarici ixtisasınızda çatışmazlıqlar varsa və siz təhsilinizin alman təhsilinə ekvivalentliyini (Kenntnisprüfung) sübut etməli və **bunun üçün Siz yalnız bir imtahandan (ixtisas dili və ya ixtisas bilikləri üzrə imtahanından) keçməlisinizsə**, bu halda siz **yalnız „TLScontact" viza servis mərkəzinə** Yaşamaq haqqında Qanunun §16d maddəsinin 5-ci bəndinə uyğun olaraq milli viza üçün müraciət edə bilərsiniz. Siz Almaniyada xarici peşə kvalifikasiyanızın tanınması üçün imkanları araşdırmaq, tədbirlər görmək üçün „Şans kartı"na da müraciət edə bilərsiniz. „Şans kartı"na müraciət etmək sizin üçün daha sərfəli ola bilər, çünki Yaşamaq haqqında Qanunun §16d Bölməsinin 5-ci bəndinə uyğun olaraq rəsmiləşdirilən viza ilə işləməyə **icazə verilmir,** lakin „Şans kartı" Almaniyada olduğunuz müddətdə sınaq işi və ya 20 saatlıq əlavə iş imkanı verir.

İxtisas dili və ixtisas bilikləri üzrə imtahanlar üçün milli viza almaqdan ötrü **yalnız kənar xidmət şirkəti TLScontact-a** müraciət edilə bilər.
Viza müraciətlərinin qəbulu mərkəzinin ünvanı: **Xocalı prospekti 37, Dəmirçi Biznes Mərkəzi, AZ1025 Bakı, Azərbaycan.** Qəbul vaxtının təyin olunması üçün aşağıdakı linkdən istifadə edə bilərsiniz: https://visas-de.tlscontact.com/en-us/country/az/vac/azBAK2de/application-process

Sənədlərin **işlənmə müddəti orta hesabla 1-2 həftə** davam edir. Əgər əvvəllər Almaniyada deportasiyanın müvəqqəti dayandırılması (Duldung) əsasında və ya müvəqqəti yaşayış icazəsi əsasında yaşamısınızsa və ya sizə qarşı yaşayış icazənizin ləğvi üçün tədbirlər görülübsə, işlənmə 3 aya qədər, fərdi hallarda isə daha uzun müddət davam edə bilər.

**Viza almaq üçün aşağıdakı sənədlər tələb olunur:**

| **Viza ərizəsi üçün sənədlərin siyahısı**<br>Hər bir ərizə ilə aşağıdakı sənədlər tam şəkildə təqdim edilməlidir. |
|---|
| ☐ Ən azı 2 boş vərəqi olan etibarlı xarici pasport *(xarici pasportun şəkil olan səhifəsi və əvvəlki Şengen vizalar və, möhürlər səhifələrin 1 ədəd surəti)* |
| ☐ Şəxsiyyət vəsiqəsi və ya əcnəbilərə verilən etibarlılıq müddəti qüvvədə olan Azərbaycanda yaşamaq icazəsi*(əsli + 1 ədəd surəti)* |
| ☐ alman dilində tam şəkildə doldurulmuş və şəxsən imzalanmış milli viza üçün ərizə forması |
| ☐ 2 ədəd biometrik pasport şəkli (3,5 x 4,5 sm; 6 aydan köhnə olmamalı) |
| ☐ Viza rüsumu (bax: milli viza ilə bağlı ümumi məlumatlar) |
| ☐ İmtahan tarixinin rəsmi təsdiqi |
| ☐ Almaniyadakı səlahiyyətli tanınma orqanı tərəfindən verilən (qismən) və ya tam tanınma haqqında şəhadətnamə yaxud çatışmazlıq haqqında qərar (Feststellungsbescheid) və ya müvəqqəti qərar (Zwischenbescheid).<br>*Həkim peşəsi üzrə səlahiyyətli tanınma orqanını Siz buradan tapa bilərsiniz: https://www.anerkennung-in-deutschland.de/de/interest/finder/location?profession=412* |

| | |
|---|---|
| | *Digər peşələr üçün ixtisasların tanınma orqanını burada axtarın: https://www.anerkennung-in-deutschland.de/de/interest/finder/profession* |
| ☐ | Tələb olunan dil biliklərini təsdiq edən rəsmi tanınmış dil sertifikatı (həkimlər üçün ixtisas dili və ya ixtisas biliklərinin yoxlanması üçün alman dili biliklərinin B2 səviyyədə olduğunun təsdiqi) *(əsli+ 1 ədəd surəti)* |
| ☐ | İxtisaslaşma haqqında sənədlər (diplomlar/şəhadətnamələr, iş yerindən arayışlar, dil sertifikatları və s.) *(əsli + 1 ədəd surəti)* |
| ☐ | Yaşayış yeri haqqında təsdiq (ölkəyə giriş tarixindən etibarən ən az imtahan tarixinədək olan müddət üçün) |
| ☐ | Ən az üç ayı əhatə edən müddət üçün maliyyə təminatınızı sübüt edəcək dondurlumuş bank hesabı haqqında arayış (bir ay üçün ən az 1.091,-- avro nəzərdə tutulan dondurulmuş bank hesabı) və ya maliyyə imkanının mövcudluğunu təsdiq edən öhdəlik haqqında rəsmi bəyannamə/ Verpflichtungserklärung *(əsli + 1 ədəd surəti)* |
| ☐ | "İncoming" tibbi sığortası. Bu sığorta icbari tibbi sığortanın əhatə etdiyi növ və xidmətlərə uyğun olması şərti ilə vizanın bütün etibarlılıq müddətində qüvvədə olmalıdır. |

Almaniyada Yaşamaq haqqında Qanunun §16d maddəsinin 5-ci bəndinə uyğun olaraq imtahanın verilməsi müddəti imtahan nəticələrinin bildirildiyi tarixədək olan vaxtı əhatə edir. İmtahandan keçdikdən və peşə kvalifikasiyasının ekvivalentliyinin təsdiqini əldə etdikdən sonra xaricilərlə iş üzrə məsul idarəyə (Yaşamaq haqqında qanunun §20 maddəsinə uyğun) „Şans kartı" üçün, (Yaşamaq haqqında Qanunun § 20 maddəsinin 1-cü bəndinin nömrə 4-ə uyğun) iş yeri axtarmaq üçün və ya ekvivalentliyi tanınan peşə üzrə işləmək məqsədilə yaşamaq icazəsi almaq üçün müraciət edilə bilər.